TÜRKİYE CUMHURİYETİ'NİN YÜZÜNCÜ YILI

ÇANKIRI KARATEKİN UNIVERSITETI
TÜRKOLOGİYA İNSTİTUTU

MUKİMİY ADINA KOKAND DÖVLƏT
PEDAQOJI İNSTİTUTU

AZƏRBAYCAN MİLLİ ELMLƏR
AKADEMİYASI

# III BEYNƏLXALQ TÜRKOLOJİ KONQRES

(Türk Dünyasında Milli Kimlik və Mədəni İrs)

2024 İslam Dünyasının Mədəniyyət Paytaxtı

## ŞUŞAYA HƏSR OLUNUR




**Xülasə Təqdim Etmək Üçün Son Tarix:**
20 Iyul 2024
**Qəbul Edilən Xülasələrin Elan Edilməsi:**
10 Avqust 2024
**Məqalələrin Göndərmək Üçün Son Tarix:**
25 Sentyabr 2024

**23-25 OKTYABR**
**2024**

**Konqresin Açılışı:**
AMEA Rəyasət Heyətinin Binası
Akt Zalı, Bakı/Azərbaycan
Azərbaycan saatı ilə:
09.30

Tel/Phone: +90 376 218 95 73 Fax: +90 376 218 95 74 E-Posta/E-mail: turkiyat@karatekin.edu.tr İnternet Adresi: turkiyat.karatekin.edu.tr

# III BEYNƏLXALQ TÜRKOLOJİ KONQRES:

(Türk Dünyasinda Milli Kimlik və Mədəni İrs)

**2024 İslam dünyasının mədəniyyət paytaxtı Şuşaya həsr olunur**

*(23-25 oktyabr 2024-cü il, Azərbaycan, Bakı)*

**Konqresin məqsədi**

Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi münasibətilə Çankırı Karatekin Universitetinin, Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutunun, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun və AMEA Folklor İnstitutunun birgə təşkilatçılığı ilə 23-25 oktyabr 2024-cü il tarixlərində, Bakı şəhərində "Türk dünyasında milli kimlik və mədəni irs" mövzusunda III Beynəlxalq Türkoloji Konqres keçiriləcəkdir.

Konqresin əsas məqsədi başda Azərbaycanın Şuşa şəhəri olmaqla Türk-İslam mədəniyyətinin təşəkkülündə mühüm əhəmiyyət kəsb edən mədəniyyət mərkəzlərinin, milli kimliyin formalaşması və mədəni irsin qorunmasındakı roluna diqqət çəkməkdir. Konqresdə bu məqsəddən çıxış edərək, Türk dünyasının milli mədəniyyəti və mədəni irsi kontekstində mədəni irsin, milli kimliyin formalaşmasındakı roluna diqqət yetirilməsi, maddi və mənəvi mədəni irsin sivilizasiya quruculuğu üçün əhəmiyyəti, mədəni tənəzzülün milli kimliyə təsiri və mədəni irsin qorunması, ictimai elmlərin alt sahələrinin mədəni irs-kimlik əlaqəsinə baxışı kimi mövzuların müzakirəsi və yeni fikirlərin irəli sürülməsi nəzərdə tutulur.

"Türk dünyasında milli kimlik və mədəni irs" mövzusunda konqresin digər məqsədlərindən biri də mövzuya akademik və multidisiplinar aspektdən yanaşılması, bu istiqamətdə aparılan araşdırmaların elmi dövriyyəyə çıxarılması, mədəni irsin funksionallığına əsaslanaraq milli kimliyin formalaşdırılmasındakı əhəmiyyətinin vurğulanması, müxtəlif rakurslardan yeni müzakirələr üçün zəmin hazırlanması və əməkdaşlıq edən ölkələrin (Türkiyə, Azərbaycan, Özbəkistan) akademik qurumları arasındakı elmi əlaqələrin gücləndirilməsi və inkişaf etdirilməsidir. Bu baxımdan dil, ədəbiyyat, folklor, tarix, incəsənət, politologiya, sosial siyasət və miqrasiya, sosiologiya, ekologiya, beynəlxalq münasibətlər və s. kimi sahələrdə müxtəlif mövzuların araşdırılması konqresin əsas hədəflərindəndir.

**Konqresdə iştirak şərtləri:**

Konqresdə yerli və xarici ölkə tədqiqatçılarının iştirakı nəzərdə tutulur. Konqresdə iştirak etmək istəyənlər məruzələrinin məzmununu, məqsədini, metodunu və elmi yeniliklərini əks etdirən 200-250 sözdən ibarət xülasəsini 5 açar sözlə, müraciət formasında, **20 iyul 2024**-cü il tarixinədək **turkiyat@karatekin.edu.tr** ünvanına göndərməlidirlər. Xülasələrin konqres mövzularına uyğunluğu, elmi tədqiqat metodları və tədqiqatın orijinallığı baxımından münsiflər heyəti tərəfindən dəyərləndiriləcək və qəbul edilmiş məruzələr **10 avqust 2024**-cü il tarixində elan ediləcəkdir. Məruzələrin tam mətni yazı qaydalarına uyğun hazırlanmalı və **25 sentyabr 2024**-cü il tarixindən gec olmayaraq **turkiyat@karatekin.edu.tr** ünvanına göndərilməlidir. Bu tarixdən sonra göndərilən məruzələr qəbul edilməyəcəkdir. Məruzələr münsiflər heyəti tərəfindən dəyərləndirildikdən sonra konqres materialları kitabında yer alacaqdır. Məruzələrin daha öncə heç bir yerdə çap olunmaması əsas şərtdir. Konqresdə ingilis, rus və türk dillərində məruzə etmək və tam mətni bu dillərdə hazırlamaq mümkündür. Konqres üzbəüz formatda keçirilir və ödəniş tələb olunmur.

## ƏSAS TARİXLƏR

| | |
|---|---|
| Xülasə təqdim etmək üçün son tarix | 20 iyul 2024 |
| Qəbul edilən xülasələrin elan edilməsi | 10 avqust 2024 |
| Məruzələri göndərmək üçün son tarix | 25 sentyabr 2024 |
| Konqres tarixi | 23-25 oktyabr 2024 |

## ƏMƏKDAŞLIQ EDƏN QURUMLAR

Çankırı Karatekin Universiteti Türkologiya İnstitutu (Türkiyə)

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu (Azərbaycan)

AMEA Folklor İnstitutu (Azərbaycan)

Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutu (Özbəkistan)

## KONQRESİN FƏXRİ SƏDRLƏRİ

Professor Harun ÇİFTÇİ (Çankırı Karatekin Universitetinin rektoru)
Akademik İsa HƏBİBBƏYLİ (Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti)
Akademik Muxtar İMANOV (Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun direktoru)
Professor Dilnoza HOCAYEVA (Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutunun rektoru)

## KONQRESİN İDARƏ HEYƏTİ

Professor Abdulselam ARVAS (Türkiyə)
Professor Ergin JABLE (Kosova)
Dosent Aynur İBRAHİMOVA (Azərbaycan)
Dosent Maral TAQANOVA (Türkmənistan)
Dosent Nigora KADIROVA (Özbəkistan)

## KONQRESİN TƏŞKİLAT KOMİTƏSİ

Professor Özkul ÇOBANOĞLU (Hacettepe Universiteti)

Dosent Afaq RAMAZAN (Azərbaycan Milli Elmlər Akademiyası)

Dosent Aygün BAĞIRLI (Azərbaycan Milli Elmlər Akademiyası)

Professor Dilnoza JAMOLİDİNOVA (Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutu)

Dosent Elçin ABBASOV (Azərbaycan Milli Elmlər Akademiyası)

Dosent Erhan SOLMAZ (Uşak Universiteti)

Dosent Fidan QASIMOVA (Azərbaycan Milli Elmlər Akademiyası)

Dosent Gülnar KARA (Çankırı Karatekin Universiteti)
Dosent Mehman HƏSƏNLI (Azərbaycan Milli Elmlər Akademiyası)
Dr. Öğr. Üyesi Cengiz EKEN (Çankırı Karatekin Universiteti)
Dr. Öğr. Üyesi Serhat Sabri YILMAZ (Çankırı Karatekin Universiteti)
Arş. Gör. Dr. Ahmet Serdar ARSLAN (Çankırı Karatekin Universiteti)
Öğr. Gör. Sevim ÇİFTÇİ (Çankırı Karatekin Universiteti)
Afaq MUSTAFAYEVA (Azərbaycan Milli Elmlər Akademiyası)

## DƏVƏT EDİLMİŞ QONAQLAR

Professor Anarbay BULDUBAY (Qazağıstan)
Professor Jabbor ESHONKUL (Özbəkistan)
Akademik Nizami CƏFƏROV (Azərbaycan)
Professor Nur SARALAYEV (Qırğızıstan)
Professor Narbibiş ŞAMAYEVA (Türkmənistan)
Professor Olimcan QASIMOV (Tacikistan)
Professor Abuzər BAĞIROV (Rusiya)
Dr. Sacidə ÇOBANOĞLU (Türkiyə)

## ELMİ HEYƏT

Professor Əfzələddin ƏSGƏR (AMEA Folklor İnstitutu)
Professor Ahmet BOZDOĞAN (Sivas Cümhuriyyət Universiteti)
Professor Ali YAKICI (Gazi Universiteti)
Professor Almaz ÜLVİ BİNNƏTOVA (AMEA Ədəbiyyat İnstitutu)
Professor Çolpan İLDARHANOVA (Kazan Federal Universiteti)
Professor Enkhbat AVIRMED (Monqolustan Elm və Texnologiya Universiteti)
Professor Füzuli BAYAT (AMEA Folklor İnstitutu)
Akademik Gövhər BAXŞƏLİYEVA (AMEA Şərqşünaslıq İnstitutu)

Professor Hatem TÜRK (Giresun Universiteti)
Professor İsmət ÇƏTİN (Gazi Universiteti)
Professor Kürşat ÖNCÜL (Eskişehir Osmangazi Universiteti)
Professor M. Mete TAŞLIOVA (Ankara İldırım Bəyazit Universiteti)
Professor Metin EKİCİ (Ege Universiteti)
Professor Marufjon YOLDASHEV (Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutu)
Professor Nəbi ÖZDƏMİR (Hacettepe Universiteti)
Professor Nesime CEYHAN AKÇA (Çankırı Karatekin Universiteti)
Professor Nezir TİMUR (Gazi Universiteti)
Professor Öcal OĞUZ (Hacı Bayram Veli Universiteti)
Professor Ramazan QAFARLI (AMEA Folklor İnstitutu)
Professor Salahaddin BEKKİ (Kırşehir Ahi Evran Universiteti)
Professor Seyfəddin RZASOY (AMEA Folklor İnstitutu)
Professor Seyfullah YILDIRIM (Gazi Universiteti)
Akademik Teymur KƏRİMLİ (AMEA Əlyazmalar İnstitutu)
Dosent Adil ÇELİK (Sivas Cümhuriyyət Universiteti)
Dosent Arife ZEYNALOVA (Naxçıvan Dövlət Universiteti)
Dosent Cavit GÜZEL (Amasya Universiteti)
Dosent Elif GÜRSOY ŞAHİN (Uşak Universiteti)
Dosent Elisabed BZHALAVA (İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti)
Dosent Erhan GİRAY (Artvin Çoruh Universiteti)
Dosent Fatih BALCI (Kayseri Universiteti)
Dosent Fatih SONA (Çankırı Karatekin Universiteti)
Dosent Feruza DJUMANİYAZOVA (Daşkənd Dövlət Şərqşünaslıq İnstitutu)
Dosent Gökçe Yükselen PELER (Erciyes Universiteti)
Dosent İbrahim AKYOL (Çankırı Karatekin Universiteti)
Dosent İbrahim ONAY (Çankırı Karatekin Universiteti)
Dosent Uğur ALTUĞ (Çankırı Karatekin Universiteti)
Dosent Kürşat KOÇAK (Nevşehir Hacı Bektaş Universiteti)
Dosent Kakacan JANBEKOV (Türkmənistan Elmlər Akademiyası)
Dosent Leyla MƏMMƏDOVA (AMEA Folklor İnstitutu)
Dosent Lübovi ÇİMPOEŞ (Moldova Bilimler Akademisi)
Dosent Matluba RASULOVA (Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutu)
Dosent Mehmet ÖZDEMİR (Artvin Çoruh Universiteti)
Dosent Murat TANRIKULU (Çankırı Karatekin Universiteti)
Dosent Muyassar SAPARNİYAZOVA (Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti)
Dosent Sümeyra ALAN (Erzurum Teknik Universiteti)
Dosent Şahnoza KARŞİYEVA (Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutu)
Dosent Ziyada MİRZAYUNUSOVA (Mukimiy Adına Kokand Dövlət Pedaqoji İnstitutu)
Dosent Zülfiye KOÇAK (Bitlis Eren Universiteti)
Dr. Öğr. Üyesi Serkan CİHAN (Çankırı Karatekin Universiteti)
Dr. Öğr. Üyesi Seyit YAVUZ (Erzurum Teknik Universiteti)
Dr. Elmira TÖLÖKOVA (Qırğızıstan-Türkiyə Manas Universiteti)
Dr. Nebahat SÜLÇEVSİ (Kosova Priştina Universiteti)

## KATİBLİK VƏ ƏLAQƏ

Ali Osman KARAKUŞ (Çankırı Karatekin Universiteti)
Lalə ŞABANOVA (AMEA Folklor İnstitutu)

**III BEYNƏLXALQ TÜRKOLOJİ KONQRES:**

(Türk Dünyasinda Milli Kimlik və Mədəni İrs)

**2024 İslam dünyasının mədəniyyət paytaxtı Şuşaya həsr olunur**

*(23-25 oktyabr 2024-cü il, Azərbaycan, Bakı)*

**YAZI QAYDALARI**

**Başlıq**

12 şriftlə, böyük hərflərlə, qalın, məzmuna uyğun yazılmalı, 12 sözdən çox olmamalıdır. İkinci başlıq bir sətir aşağıda qalın, kursiv və yalnız birinci hərflər böyük yazılmalıdır. Mətndaxili başlıqlar (qaynaqlar da daxil olmaqla) 11 şriftlə olmalı və başlıqlardan əvvəl sətir boşluğu buraxılmalıdır.

**Müəllifin Adı**

Başlığın altında, sağda soyad qalın böyük hərflərlə, adın sonunda isə '*' ətək yazısı ilə elmi dərəcə, qurum, e-poçt və ORCID nömrəsi yazılmalıdır.

**Misal:**

Professor, Çankırı Karatekin Universiteti, Ədəbiyyat Fakültəsi, Türk Dili və Ədəbiyyatı Bölməsi, Çankırı/ Türkiyə, aarvas@karatekin.edu.tr, ORCID: 0000-0000-0000-0000.

**Xülasə**

Xülasə, Times New Romanda, 10 şriftlə yazılmalıdır. Mətn hər iki tərəfdən düz olmalı, absazsız yazılmalıdır. Xülasə 200-250 sözdən ibarət olmalı və tədqiqatın əsas uyğun yazılmalıdır. Xülasənin altında sətir boşluğu olmalı və buraya 5 açar söz daxil edilməlidir. Məqalələrin ikinci xülasəsi ingilis dilində hazırlanmalıdır.

**Məruzə mətni**

Məqalələr Word proqramında, 11 şriftlə, Times New Romanda və bir sətir interval ilə yazılmalıdır. Səhifənin yuxarı kənarından 3 sm, digər kənarlarından isə 2,5 sm kənar boşluq qoyulmalıdır. Abzassız yazılmalı, məqalənin mətni hər iki tərəfdən düz olmalıdır. Abzaslar arasındakı boşluq əvvəlcə 0 pt, sonra 6 pt olmalıdır. Şeirlər, bölmələr, sitatlar və s. arasında boşluq olmamalıdır, lakin abzasdan əvvəl və sonra 6 pt boşluq qoyulmalıdır. Mətn daxilində başlıqların ilk hərfləri böyük, kursivlə və qalın yazılmalıdır. Başlıqlardan əvvəl və sonra 1 interval boşluq olmalıdır. Mətndə əsər adları kursivlə göstərilməlidir. Mətnə daxil ediləcək fotoşəkillər, cədvəllər və rəqəmlər nömrələnməli və adlandırılmalıdır. Bunlar mətnin üçdə birindən çox olmamalı və əlavələrdə təqdim edilməlidir. Bundan əlavə, fotoşəkillər yüksək keyfiyyətli olmalıdır. Mətndə izahat üçün verilən qeydlər ətək yazısında qeyd edilməlidir. Ətək yazısı 9 şriftlə, Times New Romanda yazılmalıdır.

Məqalələrdə mətndaxili sitat üsulundan istifadə edilməlidir. Nümunə: (Çobanoğlu, 2015: 12) Sitatlar dırnaq içərisində verilməlidir. Uzun sitatlar sağdan və soldan 1 sm məsafədə, 10 şriftlə göstərilməlidir.

**Ədəbiyyat siyahısı**

Ədəbiyyat siyahısı 10 şriftlə və 1 sm boşluq ilə hazırlanmalıdır. Məqalədə istifadə olunan ədəbiyyat mətnin sonunda müəlliflərin soyadlarına uyğun olaraq əlifba sırası ilə sıralanmalıdır. Məqalədə eyni müəllifin birdən çox əsərindən istifadə olunarsa, bu əsərlərin nəşr tarixinə hərf əlavə edilməlidir. (2015a), (2015b).

Ədəbiyyat siyahısı aşağıdakı kimi yazılmalıdır:

*Kitablar üçün;*

Türkeş Günay, Umay. (2011). Elazığ Nağılları və Propp Metodu. Ankara: Akçağ Yayınları.

*Tərcümə edilmiş kitab üçün;*

Propp, Vladimir. (2011). Masalın Biçimbilimi. (M. Rifat və S. Rifat, Tərcümə edən). İstanbul: İş Bankası Kültür Yayınları.

*Kitab fəsilləri üçün;*

Elçin, Şükrü. (1996). Yeşil Abdal ve Karaca Oğlan Üzerine Notlar (Özkul Çobanoğlu- Metin Özarslan, Red.). Prof. Dr. Umay Günay Armağanı (səh. 10-12). Ankara: Feryal Mətbəə

*Məqalələr üçün;*

Çobanoğlu, Özkul. (2018). Kazak Halk Kültüründe "Kam"dan "Baksi" ve "Emçi"ye Dönüşümler. AVRASYA Uluslararası Araştırmalar jurnalı, *6 (7), 1-9.*

*Konfrans Kitabları üçün;*

Çobanoğlu, Özkul. (2016). Yarı Resmi Sohbet Gelenekleri Bağlamında Kahvehaneler ve Meraklı Grupları. *Anadolu Sohbet Gelenekleri ve Yaren,* (İbrahim Akyol və başqaları Red) içinde (s. 90-96). Çankırı.

*Dissertasiya üçün;*

Özarslan, Metin. (1999) *Erzurum ve Çevresinde Âşıklık Geleneğinin Bugünkü Durumu.* Çap olunmamış doktorluq dissertasiyası, Hacettepe Universiteti, Ankara.

*İnformatorlar üçün;*

Ad və soyad. Doğum yeri. Doğum tarixi/Yaş. Təhsil/peşə. (1 yanvar 2012-ci il tarixində Ankarada hazırlanmış bu material .... şəxsin şəxsi arxivindədir.)

*İnternet üçün;*

ÇAKÜ Türkiyat. 29 oktyabr 2021-ci il tarixində Turkiyat.karatekin.edu. tr adresindən götürülmüşdür.

**QEYD:** Məqalələr turkiyat@karatekin.edu.tr elektron poçt ünvanına göndərilməlidir. III Beynəlxalq Türkoloji Konqresi beynəlxalq statusludur. Konqresin yazı qaydalarına uyğun tərtib olunmayan məqalələr qəbul edilməyəcəkdir. Məqalələrin oxşarlıq dərəcəsi 20%-dən çox olmamalıdır. Bu nöqtədə məsuliyyət müəllifə məxsusdur.